# Müşavirədə həssas qrupların problemlərinin prioritet olduğu bildirildi



***"Burada məsələ qoyulmuşdur ki, şəhid ailələrinin – həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin şəhid ailələrinin, müharibə əlillərinin yaşayış məsələləri tezliklə öz həllini tapsın. Bu istiqamətdə bu il və keçən il önəmli addımlar atılmışdır. Əmək və əhalinin sosial müdafiəsi naziri məlumat versin, bu işlər nə yerdədir və ilin sonuna qədər hansı işlərin görülməsi nəzərdə tutulur?"***

***Həmin fikirləri bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə dövlət başçımız söylədi. Müşavirəni diqqətlə izləyən bir vətəndaş kimi, Prezidentin həssas qruplara olan diqqət və qayğısına, bütün sahələrə aid dərin biliyə malik olmasına bir daha heyrət oldum və qürur hissi duydum.***

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev ərazilərimizin işğaldan azad olunmasından sonra həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birinin müharibədə iştirak edən və həyatını itirən şəhidlərimizin ailə üzvlərinə, öz sağlamlığını itirən müharibə əlillərimizə, eyni zamanda, müharibə iştirakçılarına dövlət dəstəyinin genişləndirilməsi, bir sözlə, həssas qrupların problemlərinin prioritet olduğunu bildirdi. Həqiqətən, dövlət başçısının tapşırıqlarına uyğun olaraq bu istiqamətdə tədbirlər bir neçə sahə üzrə aparılmışdır. İlk növbədə, 93 min şəxsə – həm şəhid ailəsi üzvləri, həm müharibə əlilləri, eyni zamanda, müharibə veteranlarına 103 min sosial ödəniş təyin olunmuşdur. Sevindirici haldır ki, dövlət başçısının müvafiq fərman, sərəncamları ilə 2021-ci ilin əvvəllərində bu kateqoriyadan olan insanlara ödənilən Prezident təqaüdünün məbləği, bu ilin əvvəlindən isə əlilliyə görə aldıqları sosial müavinətlər 60 faizədək artırılmışdır.

Müşavirədə məlumat verildi ki, məşğulluq sahəsinə dəstək tədbirləri çərçivəsində 11 min şəhid ailəsi üzvü və müharibə əlilinə kömək məqsədilə məşğulluq tədbirləri görülmüşdür. Onların bir hissəsinə kiçik ailə təsərrüfatının qurulması imkanı yaradılmışdır. Həmçinin məşğulluq marafonu çərçivəsində, xüsusilə, sahibkarlarımızın bu proqrama aktiv qoşulması nəticəsində yaradılmış vakansiyalara iki mindən artıq şəhid ailəsi üzvü və müharibə əlili cəlb edilmişdir. Ən önəmli istiqamətlərdən biri mənzil təminatı məsələləri olmuşdur. Belə ki, ötən il üç minədək mənzil məhz şəhid ailələri və müharibə əlillərinə təqdim olunub. Bu ilin birinci rübündə də 200 mənzil bu kateqoriyadan olan insanlara verilib. Son üç il ərzində 6 min 300, ümumilikdə isə 12 min 500 mənzil məhz bu kateqoriyadan olan insanlara təqdim olunub. İlin sonunadək əlavə 1300 mənzilin də təqdim olunması gözlənilir.

Müşavirədə döyüşlər zamanı yaralanmış 8 min əsgərə 23 min reabilitasiya xidməti göstərildiyi də vurğulanmışdır. Belə ki, 190 qazi bugünədək dördüncü nəsil 200 elektron protezlə təchiz edilib. Əlavə olaraq, müharibədə yaralanmış 3 minədək əsgərə 16 min reabilitasiya vasitəsi təqdim olunub. Bu proses də uğurla icra olunur və davamlı şəkildə həyata keçiriləcəkdir. Ümumiyyətlə, Vətən müharibəsində iştirak edib əzalarını itirən cəmi 6 qazi protezlə təmin olunmayıb. Bunun da səbəbi onların müalicə proqramıdır.

Müxtəlif xəsarətlərə uyğun aparılan müalicə kursu tam bitməlidir ki, müalicənin müəyyən bir nöqtəsindən sonra şəxs protezləşməyə təqdim olunsun. Bu sahədə işlərin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi üçün avqust ayından etibarən, həm DOST mərkəzlərində, həm də Dövlət Sosial Müdafiə Fondunun regional filiallarında Vahid Əlaqələndirmə mərkəzləri yaradılıb. Ötən 6 ay ərzində bu mərkəzlərdə 26 min şəhid ailəsi üzvü, müharibə əlili qəbul edilib. Onlara 26 xidmət mərkəzləşdirilərək bu çərçivədə təqdim olunur.

Qeyd edək ki, ərazilərimizin işğaldan azad olunmasında əməyi olanlara xüsusi diqqət və qayğı davamlıdır. Dövlət başçımızın dəfələrlə qeyd etdiyi kimi, şəhid ailələrinin və qazilərin problemləri ilk növbədə həllini tapmalıdır və bunlar prioritet məsələlərdir.

***Elçin QULİYEV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

Xalq qəzeti .- 2022.- 14 aprel.- S.3.